# Qismətinə Şəhidlik zirvəsinə yüksəlmək yazılmışdı

## Şəhid Gülmalıyev Ağamirzə Ağabəy oğlu

**Ağamirzə Ağabəy oğlu Gülmalıyev 02 aprel 2002-ci ildə Bakı şəhəri Qaradağ rayonunun Qızıldaş qəsəbəsində anadan olmuşdur. 2009-cu ildə Qızıldaş qəsəbəsində yerləşən 180 saylı orta məktəbin 1-ci sinfinə daxil olan Ağamirzə 2019-cü ildə həmin məktəbi və 8 saylı Peşə litseyini bitirmiş və ordu sıralarına yollanmışdır.**



Həyatının ən qaynar çağını yaşayan Ağamirzə Gülmalıyevin qismətinə Şəhidlik zirvəsinə yüksəlmək yazılmışdı. O, Füzuli rayonunun azad edilməsi əməliyyatlarına qatılmış və Suqovuşanın azad edilməsi zamanı xüsusi fərqlənmiş, cəsurluq və igidlik nümunəsi göstərmiş, qəhrəmancasına şəhid olmuş və Şonqar məzarlığında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Ağamirzə Gülmalıyev "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

**Allah rəhmət eləsin!**

**Azad Azərbaycan.- 2022- ci il.- 28 aprel.- S. 5.**